# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 14 (1654) 31 avqust 2017 - ci il Qiymətı 50 qəpik


# Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

**Hörmətli həmvətənlər!**

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mənəvi kamillik və vəhdət rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Öz demokratizmi, humanizmi və bəşəri idealları ilə dünya sivilizasiyasının möhtəşəm səhifəsini təşkil edən İslam dini xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynamış, mütərəqqi islami dəyərlər və ənənələr Azərbaycanda həmişə uca tutulmuşdur.

İslamın bir din kimi tamamlanmasını və mənəvi-əxlaqi qurtuluş yolu olaraq bəşəriyyətə göndərilməsini özündə təcəssüm etdirən mübarək Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə və qardaşlığa dəvət edən bir bayramdır. Bu əziz gündə müsəlmanlar Allah yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir, uca Tanrıya yaxınlığın fərəhini yaşamaq fürsəti əldə edirlər.

Xalqımız öz milli-mənəvi dəyərlərinə və ənənələrinə həmişə ehtiramla yanaşır. Bütün dini mərasimlər, o cümlədən Qurban bayramı hər il böyük təntənə ilə qeyd edilir. Ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, geniş xeyriyyəçilik işləri görülür, dövlətimizin tərəqqisi və əmin-amanlığı üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, builki Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

**Əziz bacı və qardaşlarım!**

Bu mübarək gündə bir daha hamınıza ulu Tanrıdan möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 29 avqust 2017-ci il.



## BU SAYIMIZDA


ATU-ya qəbul olan tələbələrin qeydiyyatı başa çatıb 2



ATU–nun eimi işlər üzrə prorektoru İslam Dünyası Rektorlar Konfransına qatılıb 2




Uşaqlarda gec danışmağın səbəbi B12 vitamini çatışmazlığı ola bilər 3

Məktəblilərin qida gigiyenası qaydaları mətbuat konfransında müzakirə edildi 3

Tibb Universitetinin mütəxəssisləri bir ilkə imza atıblar 3

ƏMƏKDAŞLARIMIZ İSTİRAHƏTLƏRİNDƏN RAZILIQ EDİRLƏR 4-5



Tədris-Terapevtik Klinikasında ödənişsiz müayinə aksiyası başa çatdı 7



ATU-nun cərrahı Ümumdünya Cərrahlar Konqresində iştirak edib 3

ATU alimlərindən daha bir yenilik – talassemiyali xəstələrdə bədənin dəmirlə yüklənmə dərəcəsini müəyyən etmək üçün diş ətindən biopsiya götürələcək 2

# ATU-ya qəbul olan tələbələrin qeydiyyatı başa çatıb

**Azərbaycan Tibb Universitetinə yeni qəbul olan tələbələrin qeydiyyatı prosesi başa çatıb. Məlumat üçün bildirək ki, 15 avqust tarixindən etibarən universitetimizdə yeni tələbə adını qazanmış abituriyentlərin sənədlərinin qəbuluna start verilmişdir.**





Abituriyentlərin rahatlığı üçün qeydiyyat prosedurunda lazım olan sənədlərin siyahısı əvvəlcədən ATU-nun saytına yerləşdirilmişdi. Buna baxmayaraq, bəzi tələbələrin sənədlərində çatışmazlıqlar aşkarlansa da ATU-da yaradılmış ciddi nəzarət sayəsində bu cür məsələlərin yoluna qoyulmasında tələbə adını qazanmış abituriyentlər və onların valideynlərinə lazımi məsləhətlər verilmişdir.



Sənəd qəbulunun daha asan və rəvan keçməsi üçün universitet rəhbərliyi tərəfindən bütün zəruri tədbirlər görülmüşdür. ATU-da hər bir fakültənin qeydiyyat prosesi ayrılıqda aparıldığından, anlaşılmazlıq və sıxlıq yaranmayıb.

Bir daha qeyd edək ki, qeydiyyat üçün lazım olan sənədlərin siyahısı, bəzilərinin isə hətta forması əvvəlcədən ATU-nun internet saytı, həmçinin rəsmi Facebook səhifəsində yerləşdirilib. Gənclər qeydiyyatla bağlı suallarını ATU-nun Facebook səhifəsinə ünvanlayıblar. Eyni zamanda, abituriyentlər universitetdə qeydiyyatla bağlı yaradılmış Qaynar Xətt telefon nömrəsi ilə də əlaqə saxlamaqla onları maraqlandıran məsələlərə aydınlıq gətirilib.

Avqustun 21-də ATU-nun rektoru, professor Gəray Gəraybəyli də universitetdə aparılan qeydiyyat prosesinin gedişatını izləyib. Abituriyentlər və valideynləri ilə söhbət edən G.Gəraybəyli proses zamanı hansısa çətinliklərin yaranıb-yaranmadığı ilə maraqlanıb. Rektor qeydiyyat prosesinin daha da sürətləndirilməsi üçün müvafiq məsləhətlərini verib.

Qeyd edək ki, bu il yüzlərlə gənc Azərbaycan Tibb Universitetinə qəbul olub. Avqustun 15-dən etibarən Azərbaycan Tibb Universitetinin tələbəsi adını qazanmış abituriyentlərin qeydiyyat prosesinə start verilib.

I kurs tələbələrinin qeydiyyatı avqustun 25-ə qədər davam edib. Qeydiyyat hər gün (istirahət günləri istisna olmaqla) saat 10:00-17:00-a qədər ATU-nun 5 saylı tədris korpusunda aparılıb.

# ATU-nun eimi işlər üzrə prorektoru İslam Dünyası Rektorlar Konfransına qatılıb

ATU-nun eimi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov iyulun 26-27-də Türkiyənin paytaxtı Ankara şəhərində Prezident sarayında keçirilən İslam Dünyası Rektorlar Konfransına qatılmışdır.



R.Bəylərov konfransla bağlı ATU-nun mətbuat xidmətinə məlumat verib.

O bildirib ki, konfransda 30 ölkədən gəlmiş 120-dən çox ali təhsil müəssisələrinin rəhbərləri iştirak edirdilər. Konfransı Türkiyənin Ali Təhsil üzrə Nümayəndəliyinin prezidenti, professor Yekta Sarac açılış nitqi ilə başlamışdır. O, iştirakçıları salamlamış, konfransın işinə uğurlar arzulamış, fikirlərini və təəssüratlarını konfrans iştirakçıları ilə bölüşmüşdür. Konfransın keçirilməsində çox böyük əməyi və dəstəyi olanlara, ilk növbədə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana öz təşəkkürlərini bildirmişdir.

Professor Yekta Sarac öz nitqində konfransın əsas məqsədlərindən söz açmışdır. Əvvəlcə Türkiyədə təhsilin inkişafı ilə tarixə nəzər salmışdır. Təhsilin, elmin inkişafı ilə yanaşı, hələ qədim dövrlərdə digər islam dövlətlərindən olan tələbələrin burada təhsil almalarından, alimlərin burada elmi araşdırmalarda qarşılıqlı əməkdaşlığından söhbət açmışdır. O, qeyd etmişdir ki, bütün Şərq ölkələrində olan elm mərkəzləri bir-birilərindən xəbərdar olmuşdur ki, bu da elmin və təhsilin inkişafına səbəb olmuşdur.

Hal-hazırkı dövrdə də islam dünyasında olan ali təhsil müəssisələrinin bu konfransda iştirakı bir hədəfə dönüşü deməkdir və islam ölkələrində yüksək təhsilli gənclərin hazırlanması, elmi araşdırmaların aparılması üçün əməkdaşlığın başlanğıcıdır. O qeyd etmişdir ki, universitetlərimiz ortaq maliyyə imkanları sayəsində elmi araşdırmaların genişlənməsinə yardım edəcəkdir.

Ortaq diplom proqramları xüsusi olaraq tibb və mühəndis ixtisasları üçün nəzərdə tutulmuşdur. Ölkələr arasında tələbə dəyişməsinin də çox vacib olduğu vurğulanmışdır. Elmi araşdırmaların əməkdaşlıqda aparılması da konfrans gedişatında önə çəkilmişdir. Konfranda bir qədər də təhsil proqramları haqqında söhbət açılmışdır. Təhsilin inkişafı üçün artıq Bolonya, yaxud Erasmus sistemləri deyil, Mevlana proqramı haqqında və bu sistemin faydalarından danışılmışdır.

Professor Y. Sarac sonda "elm adına bu gün azadlığa dünənkindən daha ümidlə baxırıq" deyərək nitqini bitirmişdir.

R.Bəylərov bu konfransa islam dünyasında marağın çox böyük olduğunu vurğulayır və gələcəkdə bütün İslam dünyasında elm və təhsildə əməkdaşlığın daha da inkişaf etməsinə ümid edir. Elm və təhsildə olan yenilikləri də məhz bu yolla əldə etməyi mümkün hesab edir.

# ATU alimlərindən daha bir yenilik – talassemiyali xəstələrdə bədənin dəmirlə yüklənmə dərəcəsini müəyyən etmək üçün diş ətindən biopsiya götürüləcək

- **ATU-nun Histologiya və Stomatologiya (müalicə-profilaktika və digər fakültələr üçün) kafedralarının əməkdaşları talassemiyalı xəstələrdə bədənin dəmirlə yüklənmə dərəcəsini adi gözlə görünən diş ətindən götürülmüş tikələri tədqiq etməklə də müəyyən etmək olduğunu aşkar ediblər.**







Bu haqda Azərbaycan Tibb Universitetinin "Histologiya" kafedrasının müdiri, professor Eldar Qasımov klinikanın mətbuat xidmətinə məlumat verib.

Talassemiya xəstəliyi haqqında məlumat verən professor bunun irsi xəstəlik olduğunu və oksigeni bədənin bütün hissələrinə çatdıran hemoqlobin zülalının sintezinin pozulması nəticəsində baş verdiyini deyib:

"Belə xəstələrdə qan azlığı olduğundan onlara bəzən ilk yaşlarından başlayaraq qan köçürülər. Nəticədə onların bədənində ağır fəsadlara səbəb olan dəmir toplanması müşahidə olunur. Bədənin dəmirlə yüklənmə dərəcəsini müəyyən etmək üçün bütün dünyada əksərən qaraciyərdən, bəzən isə ürəkdən kiçik ölçülü tikələr (biopsiya üsulu ilə) götürülüb tədqiq olunurlar. Qaraciyərdən və ürəkdən tikələrin götürülməsi xeyli mürəkkəb proses olmaqla yanaşı, xəstələrin həyatı üçün də əlavə problemlər yarada bilir.

Beləliklə, universitetimizin histologiya və stomatologiya (müalicə-profilaktika və digər fakültələr üçün) kafedralarının əməkdaşları bədənin dəmirlə yüklənmə dərəcəsini adi gözlə görünən diş ətindən götürülmüş tikələri tədqiq etməklə də müəyyən etmək olduğunu aşkar ediblər".

Professor onu da qeyd edib ki, bədəndə olan dəmirin artığı normada ferritin tərkibində olan zülalın tərkibinə daxil edildiyindən, onun toksiki təsiri aradan qaldırılır:

"Orqanizmdə dəmir azlığı olanda isə ferritinin tərkibində olan dəmir ionları xaric edilərək istifadə olunurlar. Ancaq dəmirin miqdarı lap çox olanda ferritin molekulları öz quruluşlarını itirərək bir-birləri ilə birləşib hemosiderinə çevrilirlər. Tam olaraq dəqiqləşdirilib ki, ferritin molekullarını ancaq elektron mikroskopunun 100000 və ondan böyük böyüdücülərində aşkar etmək mümkündür. Əldə olunmuş materiallar birmənalı olaraq, oqranizmin dəmirlə yüklənmə dərəcəsinin ancaq elektron mikroskopik tədqiqatların nəticələrinə əsasən dəqiqləşdirilə biləcəyini göstərir".

**ATU-nun mətbuat xidməti**

# Məktəblilərin qida gigiyenası qaydaları mətbuat konfransında müzakirə edildi

**Yeni tədris ilinin başlanması münasibətilə Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə məktəblərdə gigiyena qaydaları, azyaşlıların qidalanması və yeni dərs ilinə hazırlıq məsələlərinə həsr olunmuş mətbuat konfransı keçirildi. Konfrans Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında respublikasının baş pedatrı N.Quliyev, kommunal gigiyena və qidalanma kafedrasının müdiri İ.Əhmədov, uşaq və yeniyetmələr gigiyenası, əmək gigiyenası kafedrasının müdiri Ş.Balayevanın iştirakı ilə təşkil olunmuşdur.**



Bildirildi ki, bu gün pediatriyanın qarşısında duran ən aktual problemlərdən biri də uşaqların düzgün qidalanmasıdır. Bu iş valideyinlərin, həkimlərin eləcə də müəllimlərin üzərinə düşür. Daim uşaqların yaşına uyğun qidalandırılmasına diqqət yetirilməlidir. Bunların başında da körpələrin ana südü ilə qidalandırılmasının təmini durur. Yay mövsümündə yaranan əsas problemlərdən biri qida zəhərlənmələridir. Havaların isti keçməsi qidaların tez xarab olmasına səbəb olur ki, bu da əsasən uşaqlarda qusma, ishal kimi hallarla nəticələnir. Bu daha çox mövsümi xəstəliklər qrupuna aiddir. İnsan sağlamlığında qidalalnma əsas yerdə durduğu üçün, uşaqların qəbul etdiyi qidaların düzgün seçilməsini tənzimləmək həkimlər üçün əsas məsələlərdən biridir. Buna əsasən bağçaya və məktəbə gedən uşaqlar aiddir. Səhiyyə Nazirliyinin tapşırığına müvafiq olaraq Azərbaycan Tibb Universitetinin kafedralarının əməkdaşları və İctimai Səhiyyə və İslahatlar Mərkəzinin əməkdaşları ilə birlikdə bu sahədə "Beş yaşa qədər uşaqların qidalandırılması" mövzusunda vəsait hazırlanıb. Məktəblilərin qidalandırılması məsələsi hazırda dövlət nəzarətindədir. Burada xüsusi tələblər var ki, bunlar da fastfud qidalarından uşaqların uzaq saxlanılmasıdır. Biz uşaqların qəbul etdiyi qidanın təbii, yaşına uyğun və uşaq orqanizminin ehtiyaclarını ödənilməsi üçün maksimum çalışılmalıdır.

Tədris ilinin başlanması ailələr və ictimaiyyət üçün böyük imtahan astanasıdır. Xüsusilə məktəbə ilk qədəm qoyan uşaqlar üçün psixoloji və adaptasiya baxımından bu olduqca ciddi bir problemdir. Bu səbəbdən valideynlər və məktəb kollektivi buna çox ciddi yanaşmalıdırlar.

Yeni dərs ilinə başlayan hər bir uşağın qidalanması, geyinməsi, günlük yuxu rejimi və gigiyenasına diqqət yetirilməsi əsas rol oynayır. Bu amillər uşaqların tədrisə həvəsini artırdığı kimi psixologiyası və məktəb fəaliyyətinə də böyük təsir göstərir. Bu baxımdan gün rejiminin düzgün qurulması xüsusilə uşaqların mövsümə müvafiq geyindirilməsi və məktəb ləvazimatlarının düzgün seçilməsi, məktəblərdə gigiyena qaydalarına düzgün riayət edilməsi, düzgün qidalanmalarına xüsusi diqqət yetirmək lazımdır. Hər bir uşaq ev yeməklərindən fastfud qidalarına keçdikdə bədəndəki bütün fizioloji proseslərin yenidən qurulması başlayır. Bu baxımdan da uşaqlarda düzgün və tənzimlənmiş qidalanmaya diqqət yetirmək vacibdir. Burada səhər yeməyi xüsusi yer tutur. Səhər isti sıyıqlarla qidalanmaya üstünlük verilməlidir. Belə ki, səhər qəbul olunan qida orqanizm üçün vacib bioloji komponentlərlə zəngin olmalıdır.

Dərs ilinin başlanması bir sıra problemləri də ortaya çıxarır ki, bu problemlərdən biri də məktəbli çantalarının ağır olmasıdır.

Uşağın məktəb çantalarının ağırlığı onun çəkisinin on faizinə bərabər olmalıdır. Çantanın ağır olması qamət pozuntularına səbəb olur ki, bu da zahiri görünüşdə yaranan dəyişikliklərlə yanaşı daxili orqanların da zədələnməsi ilə nəticələnə bilər. Məktəbli çantasının kəməri enli olmalı və hər iki çiyinə geyilməlidir. Bu problemlərdən biri də uşaqların həddsiz isti geyimlərlə geyindirilməsidir. Bu da immun sisteminin zəifləməsi ilə nəticələnir. Yay mövsümü ilə əlaqədar gündəlik rejimin pozulması yaranan problemlərdən biridir ki, burada yuxu əsas rol oynayır. Uşaqları rejimə alışdırmaq böyüklərə nisbətən çox çətindir. Bu səbəbdən tədris ilinin başlanmasından təxminən iki həftə əvvəl uşağı məktəb rejiminə alışdırmaq lazımdır.

# ATU-nun yay məktəbi fəaliyyətə başlayıb

Azərbaycan Tibb Universitetində yay məktəbi fəaliyyətə başlayıb. Yay məktəbinə 36 fənn üzrə 426 tələbə cəlb olunub.



Qurumun müdiri Mahir Quliyevin sözlərinə görə, burada dərslər iyulun 10-dan etibarən başlayıb və 5 həftə davam edəcək. 6-cı həftədə artıq imtahan veriləcək: "Bu iş üçün hər dekanlıqdan bir nəfər rəhbər seçilib. Bundan başqa, prosesə hər gün nəzarət olunur və rəhbərliyə məlumat verilir".

M. Quliyev yay məktəbinin tələbələr üçün çox rahat bir üsul olduğunu bildirib: "Tibb Universitetində bildiyiniz kimi, fənnlərin ardıcıllıq məsələsi var. Məsələn, Anatomiya-1 fənnindən imtahan verməyən tələbə, Anatomiya-2 fənninin imtahanına buraxılmır. Belə tələbələr üçün bu yay məktəbi çox böyük şansdır. 2016/2017-ci ilin I semestrində Anatomiya-1 fənnindən kəsilən tələbələr, yay məktəbində Anatomiya-2 fənnini götürərsə və bu fənni müvəffəqiyyətlə verərsə, II kursda Anatomiya-3 fənnini götürə biləcək. Əgər tələbə bunu götürməsə, onda məcburdur ki, II kursun I semestrində Anatomiya-3-ün əvəzinə, Anatomiya-2-ni götürsün. Bu da tələbənin müəyyən qədər geridə qalmasına gətirib çıxarır. Yəni yay məktəbində oxumaq tələbələrin xeyrinədir. Bu səbəbdən də tələbələr buna müsbət baxırlar".

# ATU-nun cərrahı Ümumdünya Cərrahlar Konqresində iştirak edib

Bu günlərdə İsveçrənin Basel şəhərində 47-ci Ümumdünya Cərrahiyyə Konqresi keçirilib. Beynəlxalq Cərrahiyyə Cəmiyyətinin (İnternational Society of Surgery)təşkilatçılığı ilə baş tutan toplantıda dünyanın müxtəlif ölkələrindən 100-dən çox cərrah qatılıb. 20-dən çox beynəlxalq cərrahiyyə assosiasiyalarının nümayəndələrinin iştirak etdiyi konqresdə tibbin bu sahəsinin inkişafına dair müzakirələr təşkil olunub.



Konqresdə Azərbaycan Bariatrik və Metabolik Cərrahlar Dərnəyinin sədri, ATU-nun I cərrahi xəstəliklər kafedrasının əməkdaşı Taryel Ömərov da iştirak edib. Taryel Ömərovun sözlərinə görə, konqresin ilk günü çox məhsuldar keçib: "Toplantıda dünyanın hər yanından hələn alimlər cərrahiyyənin ən son nailiyyətləri ilə bağlı çıxışlar ediblər. Amma Beynəlxalq Cərrahiyyə Cəmiyyətinin prezidenti, professor Marko Pattinin açılış nitqi daha çox yaddaqalan oldu. Konqresin ilk günü həmçinin, müxtəlif kurslar da təşkil edilib".

T.Ömərov bildirdi ki, Azərbaycan təmsilçisi olaraq ümumdünya miqyaslı bu toplantıda həddən artıq piylənməsi olan xəstələrdə mədəkiçiltmə əməliyyatlarının yeni modifikasiyasının nəticələri haqda çıxış edib: "Bu mövzuda beynəlxalq səviyyədə müzakirələr apardıq. Biz yalnız müxtəlif çeşidli bariatrik əməliyyatlar haqqında yox, həm də bu əməliyyatlarınAzərbaycanda necə uğurla həyata keçirilməsi haqda da ətraflı məlumat verdik. Çalışdıq ki, dünya cərrahları Azərbaycanda icra olunan bu əməliyyatlar haqqında məlumatlı olsunlar".

Qeyd edək ki, konresin təşkilatçısı olar Beynəlxalq Cərrahiyyə Cəmiyyəti 1905-ci ildə yaradılıb və ilk sədri Nobel mükafatı laureatı Teodor Koxer olub. Təşkilatın əsas məqsədi cərrahiyyədə mövcud olan problemlərin müzakirəsi, həmçinin əldə olunan nailiyyətlərlə bağlı təcrübə mübadiləsi üçün uğurlu platforma yaratmaqdan ibarətdir. Hər il keçirilən toplantılarda cərrahiyyə sahəsinə dair ümum mövzulara dair fikir mübadiləsi aparılır.

# Tibb Universitetinin mütəxəssisləri bir ilkə imza atıblar

**Azərbaycan Tibb Universitetinin histologiya kafedrasının müdiri, professor Eldar Qasımov və III Cərrahi xəstəliklər kafedrasının əməkdaşları tibdə bir ilkə imza atıblar.**




Əməkdaşlar N-metilqlyukamin (meqllyumin) və kəhrəba turşusu tərkibli dərman preparatının qaraciyərdə baş verə biləcək dəyişiklikləri ən azı üç gün ərzində aradan qaldırdığını aşkar ediblər.

E.Qasımovun sözlərinə görə, bu tərkibli dərman vasitəsi başqa xəstəliklərdə də istifadə olunurdu. Professor deyib: "Bu preparatın həm mexaniki sarılıq zamanı çox təsirli vasitə olduğunu aşkar etdik ki, bu da tibdə bir yenilikdir. Öd yollarının öd daşları vasitəsilə tutulması və ya əsasən mədəaltı vəzinin (pankreasın) başında olan bəd xassəli şiş kütləsinin ümumi öd axacağını sıxması nəticəsində meydana çıxır. Yaranan öd durğunluğu zamanı qaraciyər hüceyrələrində bərpası mümkün olmayan dəyişikliklərin baş verməməsi üçün müxtəlif dərmanlardan istifadə olunur. Əməkdaşlarımız tərəfindən heyvanlarda, çox zaman ağ siçovullarda ümumi öd axacağını bağlamaqla mexaniki sarılıq modeli yaradıldı və istifadə olunacaq dərmanların təsiri öyrənildi. Beləliklə, mexaniki sarılıq modeli yaradılmış heyvanlarda N-metilqlyukamin (meqllyumin) və kəhrəba turşusu tərkibli dərmanın təsiri nəticəsində qaraciyərdə baş verə biləcək dəyişiklikləri ən azı üç gün ərzində aradan qaldırmağın mümkün olduğu müəyyən edilib. İlk olaraq, qeyd edilən tərkibli dərmanın təsirindən qaraciyərdə yerləşən makrofaqların, yəni Kupfer hüceyrələrinin saylarının və funksional aktivliklərinin artması nəticəsində qanın toksiki maddələrdən və hüceyrə qırıntılarından təmizləndiyi aşkar edilib. Bundan başqa, qaraciyər hüceyrələri arasında sıx əlaqələrin açılması, ödün bilavasitə ümumi qan dövranına daxil olmasına səbəb olduğunun şahidi olduq. Nəticədə ödün qatılığının azalması səbəbindən onun toksiki təsirinin aşağı düşməsi ilə yanaşı, öd məhsullarının böyrəklər və tər vasitəsilə hissələrlə orqanizmdən kənarlaşdırıldığından qaraciyər hüceyrələrini kəskin zədələnmədən qorunduğu müəyyən edilib".

# Uşaqlarda gec danışmağın səbəbi B12 vitamini çatışmazlığı ola bilər

**B12 vitamini əksik olan uşaqlarda gec danışma kimi problemlərə rast gəlinir.**




ATU-nun Tədris Terapevtik Klinikasının pediatrları tərəfindən bildirilib ki, B12 vitamini orqanizm tərəfindən sintez olunmayan və heyvani qidaların yeyilməsi ilə mənimsənilən vitamindir. Beyinin inkişafı üçün çox vacib olan bu vitamin qırmızı ət və yumurtada çox miqdarda var. B12 vitamini eyni zamanda uşağın böyüməsi və inkişafına da təsir edir. Uşağın böyüməsi, inkişafı, yeriməsi və ya oturub qalxması kimi funksiyaların gecikməməsi üçün B12 vitamini ilə zəngin qidalar qəbul edilməlidir. Əks halda sadalanan problemlərin yaranma ehtimalı istisna deyil.

**ATU-nun mətbuat xidməti**

◆ Hər il yayda "Təbib" istirahət düşərgəsinə yolumuz düşəndə müsbət mənada hansısa bir dəyişikliyin, yeniliklərin şahidi olmuşuq. Amma bu dəfə Tibb Universitetinin əməkdaşlarına doğma olan məkana üz tutanda gözlərimizə inanmadıq. Düşərgənin yola yaxın ərazisində müasir standartlara uyğun yaraşıqlı yeməkxananın ucaldığını gördük. Dənizin mehi birbaşa yeməkxanaya tərəf əsir. Bu isə yeməkxanada nahar edənlərin istirahətinə xoş əhval-ruhiyyə qatmış olur. Artıq bura əməkdaşlar üçün təkcə bir yeməkxana rolunu oynamır, eyni zamanda bir istirahət guşəsinə də çevrilib. 200 nəfərlik istirahətçini bir dəfəyə nahar üçün qəbul etmək imkanına malik olan yeməkxananın ümumi sahəsi 711 kv.metrdir. Zal görünən şüşə ilə əhatə olunub. Qarşı və dənizə tərəf yan eyvanın açıq olması bu məkanda hava axınını daim qoruyub saxlayır. Axşamlar isə ayın nuru yeməkxanada quraşdırılmış işıq selinə qarışır və ərazidə xüsusi bir mənzərə yaradır. Ərzaq məhsullarının saxlanması üçün xüsusi anbarlar da inşa edilib. Yeməkxananın kənarında kababxana və təndirxana da var. Əməkdaşlara hər gün təndirxanada xərək çörəyi bişirilib verilir.

Burada istirahət edənlərin simasından da hiss olunur ki, razıdırlar. Özləri bu razılığı sözlə ifadə etsinlər deyə onlara yaxınlaşırıq.




# ƏMƏKDAŞLARIMIZ İSTİRAHƏTLƏRİNDƏN





## "Avtomobillərin saxlanması üçün xüsusi yer təşkil olunub"

**Fəxrəddin Məmmədov**
*(İctimai fənnlər kafedrasının professoru):*

– Bu gün mən "Təbib" istirahət düşərgəsində dincələn nəvələrimə baş çəkməyə gəlmişəm. Bura mənim üçün doğma bir məkandır. 12 ildir ki, hər il istirahətimizi bu məkanda təşkil etmişik. Ərazini gəzərkən burada böyük dəyişikliklərin şahidi oldum. Ən başlıcası isə müsair tipli yeməkxananın istifadəyə verilməsi hamımızın ürəyincədir. Ərazidə sakitlik və təmizlik hökm sürür. Bundan əlavə, əraziyə avtomobillər buraxılmır. Avtomobillərin saxlanması üçün xüsusi yer təşkil edilib. Burada dostlarla da görüşürəm, onlar da istirahətin təşkilindən çox razıdırlar.

İstərdim ki, ərazidə əlavə kölgəliklərin, istirahət guşələrinin sayı daha da artsın.

**Yavər Vəliyev**
*(Əczaçılıq fakültəsi üzrə həmkarlar təşkilatının qrup sədri, dosent):*

– "Təbib" düşərgəsində edilmiş yeniliklər bizə olduqca xoş təsir bağışlayır. Bunu möhtərəm Prezident cənab İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılışdırılması istiqamətində gördüyü işlərin bir tərkib hissəsi hesab etmək olar. Gözəl və rahat şəraiti olan belə bir düşərgənin yenilənərək istifadəmizə verilməsi bizi sevindirir. Buna görə əməkdaşlarımızın mənalı istirahətini daim diqqətdə saxlayan hörmətli rektorumuza təşəkkür edirəm.

## "Yeməkxananın inşası hamıdan çox xanımları sevindirdi"

**Sahib Əhmədov**
*(Ümumi gigiyena kafedrasının dosenti):*

– "Təbib" istirahət düşərgəsinin çox yaxşı şəraiti var. Yeməkxananın təşkil olunması, müxtəlif cür yeməklərin yüksək keyfiyyətlə hazırlanması burada istirahət edənləri çox razı salır. Xüsusilə, qadınlar üçün əla olub. Onlar qab yumaq və xörək bişirmək problemindən biryolluq azad olublar. Necə deyərlər, bu ildən etibarən normal istirahət edirlər. Çünki ötən illər yeməkləri yeməkxanadan qazanla alıb aparırdılar. Elə ən çox sevinənlər də onlar oldu.

Gündəlik dənizə gedirik. Səhər və axşam çimir, sərinlənirik. İnanıram ki, bu son deyil. Burada şəraitin yaxşılaşdırılması istiqamətində yeni addımların atılacağına əminəm.

## "Ərazidə 3 ilə böyük dəyişikliklər olacaq"

**Cahangir Qasımov**
*(Universitet Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent):*

– Universitet Həmkarlar İttifaqı Komitəsinin 27 aprel 2017-ci il tarixli hesabat-seçki yığıcağında çıxış edən hörmətli rektorumuz, professor Gəray Gəraybəyli qarşımıza belə bir tələb qoydu ki, "Təbib" istirahət düşərgəsi 3 il ərzində universitet əməkdaşlarının adına layiq istirahət ocağına çevriləcək. Təbiidir ki, 2017-ci il başlanğıc oldu. Gördüyünüz kimi, yeniliklər var. Müasir tipli yeməkxana inşa olunaraq istifadəyə verilib. Son 2 ildə də ciddi yeniliyin olacağı gözlənilir. Növbəti il otaqlarda təmir işləri aparılacaq, hər istirahət otağı üçün ayrıca sanitar qovşağı quraşdırılacaq. 3 il ərazidə düşərgə yaxşı mənada tanınmaz hala gətiriləcək, burada böyük dəyişikliklər olacaqdır.

**Adil Orucov**
*(Bioloji kimya kafedrasının assistenti):*

– Buranın şəraitindən hamımız razıyıq. Xüsusilə, yemklərin keyfiyyətindən və hazırlanmasından. Yeganə çatışmayan cəhət istirahət otaqlarında ayrı-ayrılıqda sanitar qovşağının olmamasıdır. Bu da kiçik yaşlı övladları olanlara çətinlik yaradır. Hesab edirik ki bu məsələ də gələcəkdə öz həllini tapacaq.







**Elçin Əlizadə**
*(Təchizat şöbəsinin müdiri):*

– Bu yeməkxananın inşası ilk addımdır. Mən ilk dəfə bura gələndə xanımların yeməkxananın qarşısında növbəyə durub, yeməyi qazanla qaldıqları yerə aparanda gördüm. O zaman fikrimdən keçdi ki, ilk növbədə bu problemi aradan qaldıraq, onların işini yüngülləşdirək. Biz rektordan problemlərin aradan qaldırılması üçün 3 il vaxt istədik. Artıq ilk addım atıldı. Növbəti ildə

# RAZILIQ EDİRLƏR





otaqlar sanitar qovşaqlar ilə təmir olunacaq. 3-cü il isə düşərgənin ərazisində nəzərə çarpacaq abadlıq işlərinin aparılaması, uşaqlar üçün əyləncə yerlərinin inşası, mini parkın salınması, hovuz və digər xidmət obyektlərinin tikilməsi də nəzərdə tutulub.

**Hamlet Məmmədov**
*(Hərbi tibb fakültəsinin şəxsiyyətlə iş üzrə müavini):*

– Hər şey qaydasınadır. Buranın şəraiti uşaqların istirahəti üçün normaldır. Sakitlikdir. Narahatçılıq yoxdur. İstirahətimizdən çox razıyıq.

**Osminkin Aleksandr**
*(xilasedici):*

– Gündə 2 dəfə – səhərlər 10-12 və axşamtərəfi saat 17-19 arası dənizdə çimən uşaqlara nəzarət edirik. Təhlükəsizlik məqsədi ilə dənizə şar qoyulub. Şara qədər həm böyüklər, həm də uşaqlar çimə bilər. Uşaqları təhlükəsizlik qaydalarına riayət etmələri üçün təlimatlandırırıq.

İdman yarışları təşkil edirik. Ötən günlərdə dama, domino yarışları keçirildi. Başqa idman yarışlarının da keçirilməsi nəzərdə tutulur.

Uşaqların istirahətlərinin maraqlı keçməsi üçün onları meşə gəzintisinə aparır, təbiəti necə mühafizə etmələri ilə bağlı təlimatlandırırıq. Gecələr əyləncəli musiqi təşkil olunur. Uşaqlar bunu maraqla qarşılayır.



## İstirahət edənlər arasında təkliflər də səsləndirildi

**Məhəmməd Paşayev**
*(İctimai fənlər kafedrasının dosenti):*

– 10 ildən yuxardır ki, ailəvi bu düşərgədə istirahət edirəm. İstirahətin təşkilindən narazılığım yoxdur. Bu yeməkxananın qısa zaman kəsiyində inşası və bizlər üçün istifadəyə verilməsi böyük bir hadisədir. Amma çox istərdim ki, əvvəlki kimi istirahət müddəti 15 gün olsun. Bu müddət ərzində tam şəkildə istirahət etmək olur. Düşünürəm ki, 10 günlük müddət çox qısadır. Onun da 2 günü yolda keçir. 8 gün müddətində əvvəlki kimi ürəklə dincəlmək olmur. Hər halda, bu təklifim nəzərə alınsa gözəl olar. Qalan məsələlər isə qaydasındadır.





**Solmaz Abdullayeva**
*(Histologiya kafedrasının assistenti):*

– İstirahətdən tam razıyam. Gözəl şərait yaradıblar. Hər il bura istirahətə gələndə yeniliklərlə qarşılaşırıq. İstirahətimiz üçün yaradılan şəraitə görə rəhbərliyə təşəkkür edirəm. Amma çox istərdim ki, çimərlikdə paltar dəyişmək üçün və insanların oturması məqsədilə də yerlər təşkil olunsun. Bu, olduqca vacib məsələlərdən biridir.

**Firəngiz Novruzova**
*(komendant):*

– Artıq bu ildən düşərgədə istirahət dörd mərhələdə təşkil olunur. Ötən illər bir mərhələnin müddəti 15 gün idisə, bu ildən etibarən 10 gün olub. Ərazidə 50 otaq var. Hər mərhələdə 200 nəfər universitet əməkdaşı burada istirahət etmək imkanına malikdir. İstirahət mövsümü iyulun 11-dən avqustun 22-dək davam edir. Biz buranın işçiləri ilə birgə əməkdaşların xidmətində dayanır, arzu və istəklərini yerinə yetirməyə çalışır, onların normal istirahəti üçün əlimizdən gələni edirik. Ərazinin təmizliyinə də tərəfimizdən hər an diqqət yetirilir. Çalışırıq ki, xidmətimizdən narazı qalan olmasın. Əsas məqsəd də budur, deyəsən, buna da nail olmuşuq.

Düşərgədə istirahət edənlərin əksəriyyəti onlara yaradılan şəraitə və göstərilən yüksək xidmətə görə, uiversitetin rektoru, professor Gəray Gəraybəyliyə minnətdarlığını bildirdilər.

Yeni əhval-ruhiyyə ilə istirahət edən əməkdaşlarla sağollaşıb Bakıya qayıdırıq. Amma daxilimizi bir inam çuğlayır. İnanırıq ki, gələn il bura dönəndə, bir daha ediləcək yenilikləri və bunun təsirindən çöhrələri gülümsər görəcək, əməkdaşlarımızın məmnunluq hissindən bizə də pay düşəcək...







**Arif MƏMMƏDLİ,**
**Qabil ABDULLAYEV**
**Fotolar Cənnətalı Çingizindir**

*M i n n ə t d a r l ı q*

**İki həftə əvvəl gecə saatlarında qəzetimizin baş redaktoru, şair, yazıçı-publisist Eldar İsmayılın qəflətən xəstələnməsi və xəstəxanaya yerləşdirilməsi xəbərini aldıq. Doğrusu, bu xəbər bizim üçün gözlənilməz oldu, çünki normada saxlanılan şəkərli diabeti nəzərə almasaq, Eldar müəllimin sağlamlığında ciddi bir problem yox idi.**



# Şəfalı əlləriniz var olsun

Biz xəstəxanaya çatanda öyrəndik ki, xəstəxananın baş həkimi Bəyalı Məmmədov özü Eldar müəllimin səhhəti ilə məşğuldur. Baş həkim xəstəni daim nəzarətdə saxlayır.

Çox qısa müddətdə peşəkar tibbi personalın səyi nəticəsində kritik anlar aradan qaldırılmış, xəstənin vəziyyəti stabilləşmişdi. İntensiv müalicə işləri aparılırdı.

Bir neçə gün ərzində dəqiq diaqnoz və düzgün müalicə öz effektini göstərdi. Hər birimizdə qələm dostumuzun sağlamlığının tezliklə bərpa olunacağına əminlik yarandıqdan sonra insan mənəviyyatının keşiyində dayanan böyük yazıçımıza şəfa verən həkimlərlə həmsöhbət olmağa tələsdik. Bununla həm də Azərbaycan Tibb Universitetinin məzunları ilə görüş fürsəti qazandıq.

Öyrəndik ki, Eldar İsmayılın müalicə həkimi Elşən Əliyev Azərbaycan Tibb Universitetini 1984-cü ildə bitirərək 1987-ci ilə qədər Bakı şəhər Təcili Tibbi Yardım Stansiyasında həkim işləyib. 1987-ci ildən Ə.Məlikov adına 6 saylı Birləşmiş Şəhər Xəstəxanasında işləyir, 1990-cı ildən isə reanimasiya şöbəsinin müdiridir.

Ölkəmiz dünyaya, Avropaya inteqrasiya edəndən sonra Amerikada, Türkiyədə, Hindistanda olub, tibbin müxtəlif sahələri üzrə kurslar keçib.

O, işlədiyi bu xəstəxanada əvvəllər Azərbaycan Tibb Universitetinin bir neçə kafedrasının yerləşdiyini, burada onlara dərs deyən müəllimlərlə müntəzəm görüşdüklərini deyir.

Reanimasiya şöbəsinin tibbin ən ağır sahəsi olduğunu deyən Elşən həkim bildirdi ki, Eldar müəllim şöbəyə qəbul olunanda qanında şəkərin miqdarı 510-a qalxmışdı. İlk gündən korreksiya elədik və korreksiyaya da tabe oldu. Vəziyyəti hal-hazırda stabildir, aktivləşib, gəzir. Gələndə tənəffüz çatmamazlığı, ürək çatmamazlığı əlamətləri, ağ ciyərlərində durğunluq vardı. Şəkərli diabet elə bir xəstəlikdir ki, bütün orqanlara – ürəyə də, böyrəyə də, gözlərə də, oynaqlara da təsir edir. Allaha min şükür ki, indi yaxşıdır, ayaq üstədir. Elimizin-obamızın belə bir ağsaqqalına, yazıçısına yardımçı ola bildiyimizə görə çox məmnunuq. Bir ağır xəstəni həyata qaytaranda onun qohumlarının sevincini, xəstənin özünün gülər üzünü görəndə yaşanan hissləri sözlə ifadə etmək mümkün deyil. Elə bil bütün dünyanı bağışlayırlar sənə.



Eldar müəllim müalicə müddətində ona hər cür qayğı göstərən həkimlərə – Elşən Əliyev, Sahib Gülməlıyev, Rəna Mircəfərova və Nərminə Məmmədliyə, tibb bacıları Vəsilə Qəhrəmanova, Niyyət Abbasova, Xalidə Muxtarova və Esmira Talıbovaya öz təşəkkürünü bildirir. Xəstəxananın baş həkimi Bəyalı Məmmədovun adını isə xüsusi minnətdarlıqla çəkir.

İstər tibb işçiləri, istərsə də xəstələrlə söhbət zamanı baş həkim haqqında ancaq xoş sözlər eşitdik. Hər kəs Bəyalı Məmmədovu gənc, enerjili, savadlı bir mütəxəssis, səriştəli təşkilatçı kimi dəyərləndirdi. Xəstəxanaya qısa bir müddətdə rəhbərlik etməsinə baxmayaraq, müsbət istiqamətdə xeyli işlər gördüyünü dedilər. Kollektivdə böyük nüfuz qazanmasından, tibb işçilərinə, xəstələrə qayğısından söhbət açdılar.

Biz də öz növbəmizdə Eldar İsmayılın ailə üzvləri, həmkarları və çoxsaylı oxucuları adından Azərbaycan Tibb Universitetinin adını həmişə uca tutan sağlamlıq keşikçilərinə təşəkkürümüzü çatdırır, "Şəfalı əlləriniz var olsun" – deyirik.

**A.KAMRANOĞLU**

*Y u b i l e y*

# FƏDAKAR ANATOM – ALİM, BACARIQLI MÜƏLLİM

Bu günlərdə Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası kafedrasının professoru, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Bakı şəhəri 1 №-li Tibb kollecinin direktoru, tibb üzrə elmlər doktoru, professor Mövsümov Nəriman Tofiq oğlunun anadan olmasının 60 ili tamam olur.



N.Mövsümov 1957-ci il avqust ayının 22-də Azərbaycan Respublikasının Qazı-Məmməd (indiki Hacıqabul) şəhərində anadan olub, 1974-cü ildə Bakı şəhərindəki 225 №-li orta məktəbi bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) müalicə-profilaktika fakültəsinə daxil olub. İnstitutun əlaçı tələbələrindən biri olmaqla yanaşı, onun ictimai həyatında da yaxından iştirak edən bacarıqlı gənc tibb təhsili sahəsində əldə etdiyi nailiyyətlərə görə Lenin təqaüdçüsü olub, fakültə komsomol təşkilatının katibi vəzifəsində çalışıb, hələ institutun sonuncu kurs tələbəsi ikən bu ali məktəbin Tələbə-inşaat qərargahının baş həkimi vəzifəsini yerinə yetirib. O, unudulmaz tələbəlik illərində təhsildə və ictimai işlərdə qazandığı uğurlara görə keçmiş SSRİ-nin Ümumittifaq Komsomol Təşkilatı Mərkəzi Komitəsinin Fəxri Fərmanı, eləcə də ali məktəb tələbələrinin VII Respublika elmi konfransında əldə etdiyi müvəffəqiyyətlərə görə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin və Azərbaycan SSR LKGİ Mərkəzi Komitəsinin I dərəcəli diplomu ilə təltif olunub.

1980-ci ildə ATİ-nin müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirən N.Mövsümovun təyinatı Azərbaycan Elmlər Akademiyasının akademik A.Qarayev adına ET Fiziologiya İnstitutuna verilib və orada o, elmi işçi vəzifəsində ilk əmək fəaliyyətinə başlayaraq, 1982-1986-cı illərdə həmin institutun aspirantı olub. Elmi işlərə böyük həvəs göstərən gənc 1987-ci ildə "7-14 yaşlı uşaq və yeniyetmələrdə norma və nevroz zamanı ayıqlıq və yuxu dövrlərində vegetativ sinir sisteminin funksiyası" mövzusu üzrə namizədlik dissertasiyası müdafiə edib. O, Fiziologiya İnstitutunda çalışdığı dövrdə Gənc Alimlər Şurasının sədri seçilib, eyni zamanda Bakı şəhərində keçirilən Zaqafqaziya Gənc Alim-Fizioloqlarının Konfransı üzrə Təşkilat Komitəsinin sədri, XIV Ümumittifaq Fizioloqlar Cəmiyyəti Qurultayının Təşkilat Komitəsinin üzvü olub. Bunun nəticəsi olaraq N.Mövsümova şəxsi işinə yazılmaqla, SSRİ Elmlər Akademiyası Fiziologiya Bölməsi tərəfindən təşəkkür elan edilib.

N.Mövsümovun hələ ATİ-nin I-II kurs tələbəsi olarkən insan anatomiyası fənninə və morfoloji elmlər sahəsinə göstərdiyi maraq və həvəs onu yenidən bu istiqamətə yönəldib və istedadlı gənc alim 1987-ci ildə müsabiqə yolu ilə ATİ-nin İnsan anatomiyası kafedrasının assistenti vəzifəsinə seçilib. Hələ tələbəlik illərindən akademik Vorobyovun anatomik təşrih üsullarını böyük zövqlə yerinə yetirərək tam mənimsəyən alim tezliklə bu sahənin layiqli mütəxəssislərindən birinə çevrilib. O, 1996-cı ildə kafedranın dosenti vəzifəsinə seçilib, 10 il kafedranın tədris hissə müdiri vəzifəsində çalışıb və 2003-cü ildən indiyə qədər ATU-nun nəzdində fəaliyyət göstərən FD 03.013 Dissertasiya şurasının üzvüdür. Gənc və perspektivli alim 2004-cü ildə "Normada insanda və eksperimentdə bəzi balneoloji təsirlər zamanı qırtlaq vəzilərinin morfogenezi" mövzusunda Tbilisi şəhərində doktorluq dissertasiyası müdafiə edərək, tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülüb, 2009-cu ildə kafedranın professoru vəzifəsinə seçilib və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən professor elmi adı təsdiq edilib.

Professor N.Mövsümovun ATU-nun İnsan anatomiyası kafedrasında maraqlı və məzmunlu mühazirə və praktik məşğələlər apararaq yüksək erudisiya nümayiş etdirməsi kafedranın professor-müəllim heyəti və tələbə kontingenti tərəfindən həmişə məmnunluq doğuran hörmət və rəğbətlə qarşılanır. O, dünyanın bir çox aparıcı tibb müəssisələrində keçirilən konfrans, konqres, qurultay və simpoziumlarda etdiyi elmi məruzələri ilə Azərbaycan anatomiya elminin xarici ölkələrdə də layiqli təmsilçilərindən birinə çevrilib, Beynəlxalq Morfoloqlar Assosiasiyası Rəyasət Heyətinin Koordinasiya Şurasının üzvü seçilib. Alim həm də uzun illərdir ki, Azərbaycan Morfoloqlar Elmi Cəmiyyətinin üzvüdür.

N.Mövsümov 150-dən çox elmi əsərin, o cümlədən çoxsaylı monoqrafiya, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, Şərqdə ilk dəfə çap olunan orijinal "Anatomiya atlası" kitabının müəllifi və həmmüəlliflərindəndir. Onun rəhbərliyi altında 3 nəfər tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə edib və təsdiqini alıb.

N.Mövsümov 2006-cı ildə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Bakı şəhər 1 №-li Tibb kollecinin direktoru vəzifəsinə təyin edilib və ona tapşırılan yüksək etimadı doğruldaraq indiyə qədər həmin vəzifəni müvəffəqiyyətlə yerinə yetirir. 1998-ci ildən Yeni Azərbaycan Partiyasının üzvü olan alim hazırda Yasamal rayonu üzrə Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvüdür.

Uzun illərdən bəri bizimlə çiyin-çiyinə çalışaraq hər sahədə yüksək səviyyə nümayiş etdirən Nəriman müəllimi anadanı olmasının 60-illik yubileyi münasibətilə ATU-nun İnsan anatomiyası kafedrasının bütün əməkdaşları adından səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, xoşbəxtlik, səadət diləyir, gələcək işlərində yeni nailiyyətlər arzulayırıq.

**VAQİF ŞADLİNSKİ**,
*ə.e.x., professor*
*ATU-nun İnsan anatomiyası kafedrasının əməkdaşları adından*

# Professor Mübariz Əliyev: Yanlış diaqnoz qoyulması xəstəliyin müalicəsində vaxt itkisinə səbəb olur

- **ATU-nun Tədris Cərrahiyyə Klinikasının ümumi cərrahiyyə şöbəsinin müdiri, professor Mübariz Əliyev Tədris Cərrahiyyə Klinikasında professional cərrahlar yerləşdiyini qeyd edir: "Universitet xəstəxanası bütün dünyada o biri klinikalardan fərqlənir. Fərq ondadır ki, burada professional cərrahlar briqadası olur, bura müraciət edən insanlar da həcmli və mürəkkəb əməliyyatlara məruz qalırlar. Universitet xəstəxanası bütün dövlətlərdə bu rolu oynamaq üçün yaradılır. Azərbaycanda bu var. Xarici ölkələrdə universitet xəstəxanası daim birinci hesab edilir".**

Bizim xəstəxanada mümkün qədər əməliyyatların çoxunu laparoskopik etməyə üstünlük verdiyini qeyd edən professor bu günün gələcəyin, bu günün və dünənin ən böyük proqramının laparoskopik əməliyyat olduğunu dedi: "Bu əməliyyat növü az invozivdir. Ağrısızdır, həyat keyfiyyəti yüksək olur bu əməliyyatlardan sonra. Bağırsaq xərçəngləri, mədə xərçəngləri, biz artıq bunların hamısını laporoskopik yolla edirik. Deyilir ki, 70 yaşından yuxarı insanlarda laporoskopik əməliyyatlar uyğun deyil. Lakin bizim praktika bunu göstərir ki, 70 yaşdan yuxarı xəstələrdə də laporoskopik əməliyyat icra etmək mümkündür. Bunun üçün də bizim universitet xəstəxanamızda bütün anestesioloji və reanimatoloji xidmət çox yüksək səviyyədədir".



Mübariz Əliyev həmçinin müqayisə edilərsə, ümumi cərrah olaraq, ona daha çox öd yollarının problemləri ilə əlaqədar olan, daş xəstələlikləri ilə, bağlı əməliyyatlarını icrası üçün müraciət edildiyini dedi: "Günümüzdə əsasən başqa klinikalardan diaqnostik səhvlər nəticəsində, ağırlaşıb bura gələn xəstələrlə çox sıx rastlaşırıq. Biz hərdən deyirik ki, guya Azərbaycan xalqı xəstələndikdə, həkimə gec müraciət edirlər. Amma elə deyil... İtalyan da, alman da, rus da həkimə gec gedir. Bəlkə də elə ən tez gedən bizim millətdir. Lakin, diaqnostik səhvlər olur. Biz öyrəşmişik həmişə müalicə həkiminin səhvlərini araşdırmağa. Amma diaqnostikanın səhvlərini araşdıran yoxdur. Məsələn, o gün bir xəstə gəlib, bir özəl klinikada qastroskopiya edilib, mədəyə baxılıb, nəticə kimi qastrit yazılıb. 3 gün sonra xəstə özünü pis hiss edib, baxdıq ki, mədə xərçəngidir. Yəni bu cür mədədə bu dərəcə yayılmış xərçəngi görmürlər. Xəstə də beləliklə, müalicəsində yubanmış olur. Bununla demək istəyirəm ki, xəstə müraciət edir vaxtında, amma, diaqnostik səhv olur, xəstə boşuna vaxt itirir, müalicəsi səhv gedir".

# "Sülh aylığı" çərçivəsində "Sağlamlıq baxımından insan hüquqları" mövzusunda "dəyirmi masa" keçirilib

**Hər il 21 sentyabr – "Beynəlxalq Sülh Günü" ərəfəsində ənənəvi olaraq 21 avqust - 21 sentyabr tarixləri "Sülh aylığı" elan edilir və bu ərəfədə bir sıra kütləvi maarifləndirmə tədbirləri keçirilir.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu tədbirlərin davamı olaraq avqustun 29-da "Sülh aylığı" çərçivəsində sülh və insan hüquqlarının təbliği məqsədi ilə nazirliyin İctimai Səhiyyə və İslahatlar Mərkəzində (İSİM) "Sağlamlıq baxımından insan hüquqları" mövzusunda həkim və orta tibb personalının iştirakı ilə "dəyirmi masa" təşkil olunub.

Tədbirdə bildirilib ki, "Sülh aylığı" çərçivəsində müxtəlif qurumlar, o cümlədən Səhiyyə Nazirliyi tərəfindən maarifləndirmə və təbliğat tədbirləri həyata keçirilir. Əhalinin müxtəlif qrupları arasında sülh və dözümlülük mövzusuna toxunarkən qeyd edildi ki, bu günün əhəmiyyəti, tarixi bütün dünyada qeyd olunmalıdır və bu Beynəlxalq Sülh Günü BMT tərəfindən qeyd olunan yeganə rəsmi bayramdır.

Tədbir zamanı həkimlərin gündəlik əmək fəaliyyətlərində riayət etmələri vacib olan "Həkim deontologiyası və etik davranışlar" mövzusunda müzakirə oldu. Bu mövzu ilə çıxış edən İSİM-in Layihələrin

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

əlaqələndirilməsi şöbəsinin mütəxəssisi həkimlərin tibbi etik davranışlarının pozulması hallarına dair real faktlarla çıxış edib.

Səhiyyə sahəsində qanun tərəfindən tənzimlənmiş inzibati xətalarla bağlı həkimləri məlumatlandırılması, "Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının qanunu"na dair iştirakçıları maraqlandıran sualları İSİM-in baş hüquqşünası cavablandırıb.

Tədbirin yekununda mövzu ilə bağlı geniş fikir mübadiləsi aparıldı, maraqlı təkliflər dinlənildi.

# Ölkəmizdə 3062 nəfər talassemiya xəstəsi dispanser qeydiyyatındadır

"2015-2020-ci illər üçün Talassemiya ilə mübarizəyə dair Dövlət Proqramı"nın icrası çərçivəsində talassemiyalı xəstələrə göstərilən tibbi xidmətin səviyyəsini və donor qanı ilə təminatının yaxşılaşdırılması üçün tədbirlər görülür.

Respublika Talassemiya Mərkəzinin direktoru Ceyhun Məmmədovun AZƏRTAC-a verdiyi məlumata görə, hazırda ölkəmizdə 3062 nəfər dispanser qeydiyyatında olan xəstə var. Onlardan 1085 nəfərinə eritrosit kütləsi köçürülüb.

Bu ilin 7 ayı ərzində 8 xəstə üzərində sümük iliyi transplantasiyası əməliyyatı aparılıb. İlin sonuna qədər daha 7 xəstə üzərində sümük iliyi əməliyyatı aparılması nəzərə tutulub.



# Tədris-Terapevtik Klinikasında ödənişsiz müayinə aksiyası başa çatdı

**İnsanların sağlamlığının keşiyində durmaq, mümkün qədər çox xəstəyə yardım göstərmək həkimlik sənətinin ən ümdə vəzifəsidir.**



Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən Yer kürəsində Ürək-Damar xəstəliklərindən hər il 17.5 milyon adam dünyasını dəyişir və bu da ümumi ölüm göstəricinin 31%-ni təşkil edir. Bu problemin aktuallığını nəzərə alaraq, Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında geniş əhali kütləsinə ilkin kardioloji müayinənin aparılması məqsədilə növbəti aksiya keçirilib.

Bir ay ərzində davam edən akisyada klinikanın əməkdaşları ATU-nun dosenti Dr.Rəhimə Qabulova, Dr.Afiyəddin İskəndərov və həkim-rezident Çərkəz Quliyev iştirak ediblər. Klinikaya müraicət edən hər vətəndaşa EKQ-müayinəsi və kardioloqun baxışı aparılıb, lazımı məsləhətlər verilib.

ATU-nun Tədris Terapevtik Klinikasının həkimi, dosent Rəhimə Qabulovanın sözlərinə görə, kampaniya çərçivəsində klinikaya müraciət edən xəstələrin hər biri göstərilən xidmətdən razı qalıb:

"Aksiya müddətində 200-dən artıq vətəndaş klnikaya müraciət edib, müayinədən keçib. Vətəndaşlar arasında həm profilaktik məqsədlə, həm də ciddi narahatlıqla bağlı müraciət edənlər olub. Onların hər birinə tərəfimizdən maksimal diqqət göstərilib, lazımı məsləhətlər verilib. Bəzi hallarda müraciət edən şəxslərdə nevroloji, qastroenteroloji, revmatoloji, s. problemlər də aşkar edilib, onlara mütəxəssisin baxışı tövsiyə olunub.

Ümumiyyətlə, kollektivimiz bu cür aksiyalarla daha çox insana yardım göstərməyə çalışır. Əsas məqsədimiz əhalini öz sağlamlıqlarına diqqətli olmağa çağırmaqdır".

Qeyd edək ki, aksiya avqustun 31-də başa çatır. Keçirilən kampaniyalarla bağlı ATU-nun rəsmi **www.amu.edu.az** saytında, Tibb Universitetinin rəsmi Facebook səhifəsində, həmçinin universitetin nəzdindəki klinikaların səhifələrində əvvəlcədən elanlar verilir. Hər bir kəsi bu cür aksiyalardan yaralanmağa dəvət edirik.

# Daha bir radikal əməliyyat icra edilib

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında fəsadlaşmış xərçəng şişinə görə böyük həcmli radikal əməliyyat icra edilib.**



Şiş bir sıra orqanlara invaziya edərək vahid bir kütlə formalaşdırıb. Ciddi bitişmələr əmələ gətirən patologiya bütün çanaq boşluğunu doldurub, bağırsaq keçməzliyi, hematuriya, piuriya və intoksikasiyaya səbəb olub.

Beş ay əvvəl paytaxtın başqa bir klinikasında xəstəyə törəmə yerində saxlanmaqla palliativ asılqan trasverzostomiya əməliyyatı icra edilib. Sonrakı mərhələdə çoxsaylı cərrahlar və uroloqlar tərəfindən radikal əməliyyatın icrasından imtina edilib.

Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında doqquz saat davam edən əməliyyat uğurla nəticələnib və hazırda xəstə özünü yaxşı hiss edir.

# Xarici tələbələr Azərbaycan Tibb Universitetində təcrübə keçiblər



- **"Azərbaycan Həkimlər və Təbib Tələbələr" İctimai Birliyi tərəfindən hər il müxtəlif xarici ölkələrdən gələn tələbələrin Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə və Tədris Terapevtik klinikalarında təcrübəsi təşkil edilir.**

Bu il keçirilən praktika çərçivəsində Türkiyə, Rusiya, Polşa, Çexiya, Kanada, İtaliya və Almaniya kimi müxtəlif ölkələrdən gələn tələbələr Tibb Universitetində olub, geniş təcrübə keçiblər. Təcrübə əsnasında tələbələr Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyevlə görüşüblər. Görüşdə tələbələri maraqlandıran suallar cavablandırılıb, cərrahiyyənin müxtəlif istiqamətləri üzrə müzakirələr aparılıb.

"Azərbaycan Həkimlər və Təbib Tələbələr" İctimai Birliyi Beynəlxalq Tibb Tələbələri Assosiasiyaları Federasiyasının tərkibində təsis edilib.

# Dünyanın hər yerindən ATU-ya tələbə axını davam edir



- **Avqustun 20-dən etibarən Azərbaycan Tibb Universitetinə xarici vətəndaşların qəbuluna start verilib. Artıq 4 gündür davam edən qəbul prosesindən bəlli olur ki, dünyanın bir çox ölkəsinin vətəndaşları arasında ATU-nun tələbəsi olmaq istəyənlər var. Belə ki, Azərbaycan Tibb Universitetinə müraciət edənlər arasında Rusiya, Türkiyə, Ukrayna, İran, Nigeriya və digər ölkələrdən olanlar var.**

ATU-ya xarici tələbələrin qəbulu prosesinin nizamını tənzimləmək, dəqiqliyini yoxlamaq məqsədilə universitetin rektoru, professor Gəray Gəraybəylinin əmri ilə komissiya yaradılıb. 5 nəfərdən ibarət komissiyanın tərkibinə sədr, ATU-nun ümumi işlər prorektor Natiq Xəlilov, üzvlər, rektorun müşaviri Zülfüqar Musabəyov, beynəlxalq əlaqələr üzrə prorektor Nadir Zeynalov, xarici tələbələrlə iş üzrə dekan Tariel İsmayılov, beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Müşfiq Orucov daxildir.

Komissiyanın üzvləri ATU-ya qəbul olmaq istəyən xarici vətəndaşları müsahibədən keçirir, onların bilik səviyyəsini yoxlayır, həmçinin onların sənədlərinin qaydasında olmasına nəzarət edirlər. Xarici tələbələrin sənəd qəbulu sentyabrın 30-dək davam edəcək. Universitetdə dərslər oktyabrın 1-də başlayır.

# ATU-nun Tələbə Gənclər Təşkilatının sədri Beynəlxalq Gənclər Düşərgəsində iştirak edib

- **Azərbaycan Tibb Universiteti Tələbə Gənclər Təşkilatının sədri Tural Əzizov Türk Dilli Dövlətlər Birliyinin (Türk Kənəşi) II Beynəlxalq Gənclər Düşərgəsində iştirak edib.**







Düşərgədə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Kosova dövlətlərindən olan tələbələr iştirak ediblər.

Türk Kənəşinin Azərbaycan Tələbə həyatının baş koordinatoru olan Tural Əzizov bildirib ki, tələbələrimiz düşərgədə olduqları zaman ölkəmizin milli mənəvi dəyərləri haqqında geniş məlumat veriblər və "Azərbaycan Gecəsi" adı altında ölkəmizin Milli-mənəvi dəyərləri, Gənlərə göstərilən qayğı və Təhsil sistemi haqqında cıxışlar ediblər.

ATU TGT-nin sədri Tural Əzizov eyni zamanda Azərbaycan Tibb Universitetini təmsil edərək universitetdəki təhsil sistemi, klinikaların vəziyyəti və ATU-da təhsil alan xarici vətəndaşlar haqqında ətraflı məlumat verib.

## ATU-nun builki məzunlarından biri

# Cüt bacı

**Onlar bir evin övladı, kasıb bir ailənin yetirmələridir. Bakıda səs-küylü Ş.Əzizbəyov küçəsində, abadlıq və zahiri təmtəraq baxımından elə də gözə gəlməyən məhəllədə (ev 154) yaşayırlar. Böyüyü Aytacdır, Bayramlı Aytac. 23 yaşı var. Kiçiyinin 21 yaşı. Altı illik tələbə həyatı ilə bu günlərdə vidalaşıb I bacı. ATU-nun müalicə-profilaktika fakültəsini əla qiymətlərlə bitirib. Aytac həm də 141 A qrupunun nümayəndəsi olub.**

Kiçik bacı Afət ailənin sonbeşiyidir. Təhsildə, elə həyatda da daim böyük bacını izləyib, orta təhsilini BDU-nun nəzdindəki Gənc İstedadlar liseyində tamamlayıb. Ali təhsilini isə Azərbaycan İqtisad Universitetində başa vurub. O da əlaçı olub. Adı ilin "bəxtəvər məzunları" sırasındadır.

Bacıların bu aralıq valideynlərə təqdim etdiyi "qoşa diplom"u görcək, inşaatçı-mühəndis ata Rahid, müəllim ana Sevgili xanım böyük qürur hissi keçirmiş, bu günləri həyatlarının ən xoşbəxt anları kimi qarşılamışlar.

Bu yazı Aytac barəsindədir. Afəti də "gözünə qatdıq" ki, xətri xoş olsun. Həm də bəlkə böyük bacının işi və təhsili ilə bağlı bəzi məqamlarda "bələdçi" kimi kara gəldi.

***

Tibbi biliklərə yiyələnmək, həklim olmaq arzusu birdən-birə yaranmamışdı uşağın qəlbində. Ancaq Aytac məktəbə ayaq açdığı ilk aylardan valideynlər onun yaxşı oxuması üçün əllərindən gələni əsirgəmədilər. Keçilənlərin müntəzəm təkrarı, əlavə təmrinlər, məktəbdənkənar məşğələlər Aytacda oxuyub öyrənməyə əlahiddə həvəs oyatmışdı. O, eyni zamanda musiqi təhsili alırdı, Uşaq Yaradıcılıq Mərkəzində rəsm çəkməyin bəzi incəlikləri ilə tanış olurdu, rəqslərə gedirdi. Sonra da təhsilini 147 saylı texniki humanitar liseydə davam etdirdi. VIII sinifdən isə imtahan verib, BDU-nun Gənc İstedadlar liseyində oxuyası oldu.

Aytac bu liseydə ancaq əla qiymətlərlə sinifdən-sinifə dəyişilirdi. Sonda mərkəzləşmiş imtahan komissiyası qarşısında cavab verib, əla attestat qiymətləri qazandı. Abituriyentə sənəd verilərkən onun attestatına bu cavabın əvəzində sınaq imtahanı zamanı aldığı qiymətləri köçürürlər. Beləliklə, bir səhvin ucbatından məzunun qiyməti təhrif edildi. Yekun qiymət 4,5 bal çıxarıldı. Bu "səhvi" aradan qaldırmaq üçün valideynlər, qohum-əqrəba bir çox rəsmi qurumlara üz tutdu, şikayət etdi. Nəticədə uşağın qiymətləri düzəldildi, ona yeni attestat yazıldı. Ancaq gec idi... Beləcə, ATU-ya qəbul zamanı 2011-ci ildə test imtahanında 681 bal toplayan tələbə adlı təqaüddən kənarda qaldı.

İlk uğursuzluq uşağa çox pis təsir göstərsə də, o, özünü ələ aldı. I kursda bəzi fənlərdən nisbətən aşağı göstəricilər qazanmasının da ilk səbəbini Aytac bunda görürdü. Sonradan hər şey yoluna düşdü, elmə, bilik qazanmağa olan həvəs, dönməz iradi keyfiyyətlər yaxşı nəticə verdi. Axırıncı 6 semestrdə ( IV-VI kurslar), həmçinin Dövlət İmtahanında Aytac Bayramlının adı qarşısında yalnız bir yazı, bir işarə görmək olardı: "A". Köhnə hesabla desək, yalnız əla qiymət!!!



Aytac (solda)

***

İxtisas seçimi ərəfəsində gələcək məzun çox götür-qoy etdi. Kiçik bacının təhriki ilə əvvəlcədən maraq göstərdiyi ginekologiya ixtisasını seçdi...

Aytacın narahat günləri arxada qalıb. Sorğularına Almaniyanın 6-7 şəhərindən müsbət cavab gəlib: Buyura bilərsiniz, bizdə yer də var, şərait də. Təklifləri nəzərdən keçirən məzun ailə şəraitini nəzərə alıb Ansbax şəhər klinikasını seçdi. Buradakı tibb ocağında o, üç aylıq kurs keçəcək, biliyini təkmilləşdirib imtahan verəcək... Sentyabrın əvvəllərində elm, təhsil, ixtisas qazanmaq arzusu ilə həmin ünvana yola düşəcək. Qarşıda isə daha məsul, çətin, ancaq şərəfli dövr gəlir.

***

Təhsildə böyük bacını xeyli qabaqlayan Afət isə sonda diplom işini də ingilis dilində yazıb əla qiymət aldı. Bu aralıq o, narahat günlər keçirir. Xaricdə təhsil almaq üçün imtahan verib. Lazımi sənədləşdirmənin hamısı həyata keçirilib. Vizası da əlindədir. Təhsilini başa vurub bank işçisi olmağı arzulayır. Hazırda magistratura sorağı ilə Macarıstana səfərə çıxır. "Corvinus Universty of Budapesht" təhsil ocağı yolunu gözləyir bu bəstəboy qızın.

***

Bacılar belə qızlardır. Bu səbəbdən də birini digərindən seçmədik. Uşaqlar yol üstədir, ata-ana təlaş, fikir içində. İlk günlər, aylar çətin olacaq. Ancaq yenə düzgün ailə tərbiyəsi, möhkəm bilik, dönməz iradi keyfiyyətlər zəfər çalacaq. Doğma Azərbaycanımıza cüt bacının, bir də onlar kimi istetdadlı uşaqların şəxsində xaricdən yüksək ixtisaslı mütəxəssislər qayıdb gələcəklər.

**Əsgər ƏSGƏROV,**
*ATU Əsaslı Kitabxanasının böyük kitabxanaçısı, Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin III kurs, 41$^{b}$ qrup tələbəsi Qafarova Simuzər Kəmaləddin qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, 120$^{c}$ qrup tələbəsi Fərəcov Araz Şöyüb oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, 11$^{b}$ qrup tələbəsi İsmayılova Elnarə Elxan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin V kurs, 280$^{b}$ qrup tələbəsi Ağazadə Xanım Rasim qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Eynullayev Əsəd Vidadi oğluna 2015-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən verilmiş diplom itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin kollektivi, ictimai fənlər və tibbi fizika və informatika kafedralarının əməkdaşları ictimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyevə anası

**Şükufə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Təbib" qəzetinin əməkdaşları iş yoldaşları Çingiz Cənnətalıya anası

**Gülәbatın xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Biofiziki və bioüzvi kimya kafedrasının əməkdaşları kafedranın dosenti Eyvaz İsayevə qaynı

**Asifin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98$^{c}$
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800